


# Şeirləri

**Bu da nida!**

*Göylərə qaldırdı elin başını,*
*Parlaq günəş doğdu, yurdum nurlanır.*
*Daş üstə qoymadı daşnak daşını -*
*Heydər ocağının odu gur yanır!*

*Köksünü ötürdü bu dərə, bu dağ,*
*Azad nəfəs aldı gözəl Qarabağ!*
*Düşmənin gözünə girməsə bıçaq,*
*Sanma ki, adamtək başqa söz qanır.*

*Bayraktar nərəsi çaldı cəngini,*
*Dəmir yumruq əzdi daşnak əngini!*
*Şəhid qanlarından aldı rəngini -*
*Qarabağ üfüqü nura boyanır.*

*Vətən zəmiləri tikan bitirməz,*
*Qutlu torpağımız murdar götürməz!*
*El deyibdir: igid əmək itirməz -*
*İgid Komandana el arxalanır!*

*Yetər, qara yellər coşub-əsdilər,*
*Arxalı çaqqallar asıb-kəsdilər.*
*Dəmir yumruq endi, quyruq qısdılar -*
*Teymur ordumuzu bir pələng sanır!*

Kərimli, Teymur. Bu da nida // Ədəbiyyat qəzeti.- 2023.- 23 sentyabr.- S.7.

***"ƏZİZ ŞUŞA! BİZ QAYITDIQ!"***

*Ay ağalar, gəlin sizə söyləyim:*
*Baş tacıdır bizim zəfər Şuşanın!*
*Başımıza min il qaxınc olardı,*
*Yolu bağlı qalsa əgər Şuşanın.*

*"Şuşanı al!" komandası gələndə,*
*"Yarasalar" qarğaları dələndə,*
*Fəğan etməz "Xarıbülbül" çəməndə;*
*Bağlarında gülləri tər Şuşanın!*

*Bizim dağlar igid doğan, nər doğan,*
*Bu nərlərə tay olarmı hər doğan?*
*Qəşəh demiş Rəcəb Tayyib Ərdoğan:*
*"Dumanı da gülümsəyər Şuşanın!"*

*Ağ yel kimi dərə keçib, dağ aşıb,*
*Sinəsilə sal qayaya dırmaşıb,*
*Aslan kimi kükrəyibən qarmaşıb,*
*Toyuna can saldı nəmər Şuşanın!*

*Yağıların zəhər qatdıq aşına!*
*Müjdə verin İstanbul qardaşına!*
*Türkiyəylə Azərbaycan başına*
*Zəfər günü zər səpələr Şuşanın!*

*Anıb şəhidləri gözü dolsa da,*
*Qoynunda bir daha olmaz qan-qada!*
*Kirs dağın başını duman alsa da,*
*Bundan belə üzü gülər Şuşanın!*

*Alnında vüqarı, nuru üzündə,*
*Düşmən zingiltisi məğrur izində,*
*Komandan gəzəndə Cıdır düzündə,*
*Saf ürəyi dağa dönər Şuşanın!*

***12.12.2020***

## ***DƏMİR YUMRUQ***

*Əgər bilmək dilərsənsə, DƏMİR YUMRUQ nədən doğmuş:*
*Dəmir yurddan, dəmir eldən, dəmir iradədən doğmuş!*

*Duman çökdürmək istərkən elin başına düşmənlər,*
*Yarıb zülmətləri çıxmış, günəştək zirvədən doğmuş!*

*Elin yaddaşı ölməz ki, həmişə dumduru, şəffaf,*
*Dədəm Qorqud kitabından, nağıl, əfsanədən doğmuş!*

*Gələndə dar günü yurdun, oyanıb canlanır yaddaş,*
*Deyərsən bəs çinarlardır, palıdlardır, çəmən doğmuş!*

*Anamızdır Vətən, ancaq hücum etdikdə namərdlər,*
*Xilaskar ərləri bil ki, Vətən əkmiş, Vətən doğmuş!*

*Xoş olsun halına yurdun, gəlib ilhama, qeyrətdən*
*Dəmir yumruqlu sərkərdə, müzəffər bir ərən doğmuş!*

*Sənin də adının əsli dəmirdir, Teymur, ancaq ki,*
*DƏMİR YUMRUQ vuran yerdə sənə həm bir qələm doğmuş...*

***27.09.2021***

## *MÜZƏFFƏR LİDER*

*Gur alovla yanacaqdır gecə-gündüz şamımız,*
*Vətənə sayə salır hər nə qədər İLHAMIMIZ!*

*Ana torpaq bala dərdilə yaman qəmgin idi;*
*Uzaq oldu qəmimiz, gəldi bizim bayramımız!*

*Ulu Tanrım, ONA yar ol, ODUR öz xalqına yar,*
*Belə bir RƏHBƏRƏ qurban necə getməz canımız?*

*Yumruğuyla belini qırdı o namərd yağının,*
*Kim deyirdi qalacaq yerdə bizim pak qanımız?!*

*Hələ bir böylə zəfər görməmiş idi Ana Yurd,*
*Neçə min böylə zəfər çalmağa var imkanımız!*

*ULU ÖNDƏR ocağından ucalıbdır bu alov,*
*Bu odun istisinə isinirik biz hamımız!*

*Nə gözəl günlərə yetdin, şükür olsun, Teymur,*
*Sabahın eşqi ilə çox coşacaq ilhamımız!*
***24.12.2020***

## *POLAD OLDULAR*

*Bir Polad can verdi Vətən yolunda,*
*Minlərlə oğullar Polad oldular.*
*"Haydı, aslanlarım!" dedi KOMANDAN,*
*Çaqqallar qorxudan kola doldular.*

*O gün ki aldılar vuruş xəbərin,*
*Qayım qurşandılar qeyrət kəmərin.*
*İgidlər açdılar gen sinələrin,*
*Vətənə zirehli jilet oldular.*

*Ərənlər girdilər meydana yenə,*
*Düşmənin işləri düşdü düyünə.*
*Tülkülər gəldilər kabab iyinə,*
*Özləri doğranıb salat oldular.*

*Dostun toyu oldu yağının yası,*
*Harda görünübdü hayın hayası?*
*Elə ki, açıldı Türkün "kassası",*
*Birbaş cəhənnəmə bilet aldılar!*

*Yalan ayaq tutdu, addım atmadı,*
*Goreşənin dişi bizə batmadı.*
*Haylar adamlığa hələ çatmadı -*
*Bəşər tarixində qələt oldular!*

***20.11.2020***

## *PAŞAM!*

*Arazı kim ayırar? Varmı? Mərak etmə, PAŞAM!*
*Bizi bizdən alan onlarmı? Mərak etmə, PAŞAM!*

*Fırlanan Yerdə bizim dönməyimiz pək təbii,*
*Türkə bu Yer kürəsi darmı? Mərak etmə, PAŞAM!*
*"Bastığın yerleri toprak diyerek geçme, tanı!"*
*Bu basanlar tanımazlarmı? Mərak etmə, PAŞAM!*

*"Laçınım, can Laçınım, ben sana kurban Laçınım!"*
*İştə bu şarkı kırılarmı? Mərak etmə, PAŞAM!*

*Bəxtiyarlıq gətirib Bəxtiyarın şeiri bizə,*
*Dinləyən kəslər unudarmı? Mərak etmə, PAŞAM!*

*Şuşanın zırhı bu gün bizlərə sınmaz şüşədir,*
*Bu patent sirri satılarmı? Mərak etmə, PAŞAM!*

*İki dövlətdəki millət bir olub, düşmənimə*
*Gor qazılmazmı? Qazılarmı? Mərak etmə, PAŞAM!*

*Kəsməmiş düz yolu bizdən neçə şeytan sürüsü,*
*Kəsəcəkmiş bu sanksiyalarmı? Mərak etmə, PAŞAM!*

***12.12.2020***

## *QARABAĞ TORPAĞI*

*Qarabağ torpağı, söylə, qara bağın necədir?*
*Qara torpaqda bitən barlı budağın necədir?*

*Düşmənin çəkdiyi çarpaz dağa məlhəm qoyulur,*
*Ucalan göylərə məğrur qoca dağın necədir?*

*Şəhidin qanı olubdur yağının üz qarası,*
*Görürəm, alnın açıq, üzdəki ağın necədir?*

*Ağlayıbdır neçə illər sinən üstə gecələr,*
*Daha gülsün əbədi - güllü bulağın necədir?*

*Şuşanın çal-çağırı çünki qonaq təşnəsidir,*
*Gözün üstə yer alan ali qonağın necədir?*

*Dağa söykəndin, əsl dağ polad övladın imiş,*
*Uca dağlar kimi qeyrətli dayağın necədir?*

*Yağını yaslı görüb, Teymur, utanma, xəbər al:*
*"Qulağında açılan cüt şapalağın necədir?"*
***28.07.2021***

### ***BELQIRAN GƏLİR!***

*Yol ver, qoca dünya, geri dur, qəhrəman gəlir!*
*Qəddarlara, qansızlara qan udduran gəlir!*

*Məzlumlara zülm eyləyərək şax gəzirdilər -*
*Bir bax, ikiqat oldu yağı - BELQIRAN gəlir!*

*Təsir edərmi göylərə qalxan vızıltılar? -*
*Aslan kimi sərt nərə çəkib hayqıran gəlir!*

*Zülmün topunu, gülləsini, hiylə-məkrini*
*Şir pəncəsilə yer təkinə basdıran gəlir!*

*Torpaqda nasıl rahat olar torpaq oğrusu?*
*Udduqları haram tikəni qusduran gəlir!*

*Qartalsayağı qıy vuraraq, doğma zirvədən*
*Ulduzlu-aylı bayrağını asdıran gəlir!*

*Teymur, açıldı dünyada haqqın yolu, budur:*
*Haqqın dürüst kəsimlərini kəsdirən gəlir!*
***24.11.2020***

### ***ŞUŞANIN DAĞLARI***

*Şuşanın dağları başı dumanlı...*
*Şuşanın dağları döşü çiçəkli,*
*Gömgöy çəmənləri ballı-pətəkli.*
*Qırmızı çəpkənli, yaşıl ətəkli,*
*Ay qız, o nə baldır, belə süzdürmüsən?*
*Ay qız, "o nə xaldır, belə düzdürmüsən?"*

*Şuşanın dağları ulduzlu-aylı,*
*Küçəsi-bazarı haylı-haraylı,*

*Ağır məclisləri kamanlı-naylı,*
*Dövran, o nə naydır belə susdurmusan?*
*Dövran, o nə qandır belə qusdurmusan?*

*Şuşanın dağları yenə də qarmı?*
*O qarın üstünə qanlar axarmı?*
*Otuz il yatanın günahı varmı?*
*Torpaq, nə səbirdir belə göstərmisən?*
*Torpaq, nə qəbirdir ona gül sərmisən?*

*Şuşanın dağları qayalı-daşlı,*
*Daşaltı meydanı qanlı savaşlı,*
*Öc alan igidlər odlu-ataşlı,*
*Əskər, o nə oddur belə yandırmısan?*
*Əskər, o nə beldir belə sındırmısan?*
*Şuşanın dağları yenə gül açdı,*
*Dumanı-çiskini çəkildi qaçdı.*
*Komandan azadlıq atəşi saçdı!*
*Teymur, bu nə sözdür belə yazdırmısan?*
*Teymur, bu nə qəmdir belə azdırmısan?..*

***25.01.2022***

## *ŞUŞAM*

*Feniks kimi öz külünün içindən*
*Əzəmətlə qalxıb ucalan Şuşam!*
*Çörəyini yeyib üzünə duran*
*Namərd tayfalardan öc alan Şuşam!*

*Cıdır düzü kimi ürəyi geniş,*
*Özü zirvədədir, ətəyi eniş.*
*Ulu öndərimiz nə gözəl demiş:*
*"Yağıya uddurar qara qan Şuşam!"*

*Şuşa, sən bizimsən, bizim Şuşamız!*
*Beləcə hayqırdı qalib Paşamız:*
*Aslanlar yurdunda tülkü yaşamaz!*
*Qovdu tülküləri aradan Şuşam!*

*Qayası dərd idi, dönüb mərd oldu,*
*Yağıya ürəyi sərtdən sərt oldu.*
*Qutlu torpağına saysız ər doldu,*
*Sinəsi qürurdan qabaran Şuşam!*

*Gəldi Komandanım, vüqar üzündə,*
*Dağ kimi ucaldı elin gözündə.*
*Kişi kimi durdu kişi sözündə,*
*Səni odur bizə qaytaran, Şuşam!*

*Həsrətlə gözlərdi Xanın nəğməsin,*
*Diksindi, eşidib "bismillah" səsin.*
*Yaman bozarmışdı gözəl çöhrəsi -*
*Şəhidlər qanından qızaran Şuşam.*

*Teymur, dalğalanır üçrəng bayraqlar,*
*Əbədi sürəcək bu gözəl çağlar!*
*Bir daha dəyməsin murdar ayaqlar -*
*Türkün torpağıdır hər zaman Şuşam!*

***24.01.2022***

## *ŞUŞAMIZ*

*Canımın parçası, canımda canımdır Şuşamız,*
*Damarımda dolaşan isti qanımdır Şuşamız!*

*Mən onun gül üzünə baxmaq ilə handa doyam?*
*Gül gülüstanda olar, gülsitanımdır Şuşamız.*

*Vətən övladına açmış qucağın yaz günütək,*
*Yağıya buz kimi sərt, qar-boranımdır Şuşamız.*

*Xan-vəzir məskənidir, Vaqif ilə fəxr eləyir,*
*Dövlətimdə vəzirim, həm də xanımdır Şuşamız.*

*Torpağı musiqidən yoğrulub axır, bilirəm,*
*Çünki xanəndəmiz olmuş, ozanımdır Şuşamız.*

*"Nəzmi-nazik, bayatı abi-həyatıymış" onun,*
*Qarabağ tarixini ilk yazanımdır Şuşamız.*

*Teymurun könlün açıb doğma Cıdır meydanımız,*
*Dar günümdə köməyimdir, həyanımdır Şuşamız.*

***02.02.2022***

## *AZƏRBAYCAN ƏSKƏRİNƏ!*

*Qalib oldun düşmənə, vur, pəhləvanım, mərhəba!*
*Könlümün istəklisi, canımda canım, mərhəba!*

*Tülkülərtək qaçdılar nərən duyub namərd yağı,*
*Haydı qoş, əz başların, əz, arslanım, mərhəba!*

*Gəldiyin yollar müqəddəsdir, durum qurban kəsim,*
*Başuva qoy mən dönüm, qoy mən dolanım, mərhəba!*

*Ey şəhid, bayram günün göstərdin, ancaq görmədin,*
*Qanla tarix yazmısan, cənnətməkanım, mərhəba!*

*Can verər millət yolunda alplarım, "uf" söyləməz,*
*Söyləyər: "Olsun halal canımla qanım!", mərhəba!*

*Ər kimi qalib gələr düşmənlərə ər övladı,*
*Yurdumuzdan itləri qov, KOMANDANIM, mərhəba!*

*Ey Vətən, bax oğluna, məğrur yaşa innən belə,*
*Mən də Teymurtək sənin eşqinlə yanım, mərhəba!*[1]
*18.11.2020*

---

[1] Kərimli, Teymur. Şeirlər //525-ci qəzet.- 2022.- 9 fevral.- S.18-19.